*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07 iyul 2023-cü il tarixli 3-29/3-2-422F/2023 nömrəli əmri ilə təsdiq edilmişdir*

.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul**
**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul Qaydaları" (bundan sonra – Qaydalar) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"yə və "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu qaydalar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində olan məktəbəqədər təhsil müəssisələrində müdir vəzifəsi üzrə vakant yerlərə müsabiqə yolu ilə işə qəbul qaydalarını müəyyən edir.

1.3. Müsabiqədə ali məktəbəqədər və ya ali pedaqoji təhsilli, məktəbəqədər təhsil müəssisəsində 3 ildən az olmayaraq pedaqoji stajı olan şəxslər iştirak edə bilərlər.

1.4. Aşağıdakı şəxslər məktəbəqədər təhsil müəssisələrinin müdiri vəzifəsinə işə qəbul üzrə müsabiqəyə (bundan sonra – müsabiqə) buraxılmırlar:

1.4.1. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilənlər;

1.4.2. ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər;

1.4.3. fəaliyyət qabiliyyətsizliyinə və ya məhdud fəaliyyət qabiliyyətli olmasına, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

1.4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı"nda göstərilən xəstəliklərə görə pedaqoji fəaliyyətlə məşğul olmasına qadağa qoyulmuş şəxslər.

## 2. Müsabiqənin təşkili

2.1. Müsabiqə iki mərhələdən (test və müsahibə) ibarət olmaqla keçirilir. Müsabiqənin test mərhələsi mərkəzləşdirilmiş qaydada Nazirlik tərəfindən keçirilir.

2.2. Məktəbəqədər təhsil müəssisələrində vakant yerlər Nazirliyin rəsmi internet səhifəsində elan edilir.

2.3. Müsabiqəyə ilk növbədə dövlət məktəbəqədər təhsil müəssisələrində çalışan şəxslər buraxılırlar.

2.4. Müsabiqə nəticəsində boş yerlər qaldığı halda bu qaydanın 2.3-cü bəndində qeyd olunan şəxslərin iştirakı istisna edilməklə təkrar müsabiqə elan edilir.

2.5. Müsabiqədə iştirak etmək üçün namizəd "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə işə qəbul üzrə müvafiq altsistemdə qeydiyyatdan keçir və ona elektron sistemdə "Şəxsi kabinet" açılır. Namizəd "Şəxsi kabinet"ə daxil olaraq elektron ərizəni doldurur. Namizədin elektron ərizədə qeyd etdiyi məlumatlar üç gün müddətində yoxlanılır və ərizəsi təsdiq edilmiş namizədlər müsabiqənin test mərhələsinə buraxılırlar. Namizədlər test mərhələsi ilə bağlı məlumatları "Şəxsi kabinet" vasitəsilə əldə edirlər.

2.6. Müsabiqənin test mərhələsində hər bir namizədə məktəbəqədər təhsil və idarəetmə, oxuyub anlama bacarığı, məntiq və məktəbəqədər təhsilin məzmunu istiqamətləri üzrə hər biri 15 sual olmaqla ümumi 60 sual təqdim edilir. Test mərhələsinə 120 dəqiqə vaxt ayrılır.

2.7. Test mərhələsində hər bir suala düzgün cavab 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 (sıfır) bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir.

2.8. Test mərhələsində bu Qaydanın 2.6-cı bəndində göstərilən hər bir istiqamət üzrə minimum 5 bal olmaqla ümumi 30 bal və daha yüksək nəticə göstərən namizədlər müsahibə mərhələsinə buraxılırlar.

2.9. Müsabiqənin müsahibə mərhələsi aidiyyəti üzrə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və regional təhsil idarələri (bundan sonra – yerli təhsili idarəetmə orqanları) tərəfindən keçirilir.

2.10. Müsahibə tarixi barədə məlumat aidiyyəti üzrə yerli təhsili idarəetmə orqanlarının rəsmi internet səhifəsində elan edilir.

2.11. Müsahibədə iştirak edən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

2.11.1. şəxsiyyəti təsdiq edən sənəd;

2.11.2. ali təhsil haqqında dövlət sənədi (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair sənəd);

2.11.3. sağlamlıq haqqında arayış;

2.11.4. əmək kitabçasının notariat qaydasında və ya işəgötürən tərəfindən təsdiq edilmiş surəti.

2.12. Namizədlərlə müsahibələr Nazirlik tərəfindən yaradılan komissiyalar tərəfindən aparılır.

2.13. Müsahibə mərhələsində namizədlər aşağıdakı meyarlar əsasında 5 ballıq şkala ilə qiymətləndirilirlər:

2.13.1. ünsiyyət və təqdimetmə bacarığı;

2.13.2. liderlik və idarəetmə bacarığı;

2.13.3. məktəbəqədər təhsil sahəsində pedaqoji və metodiki hazırlıq səviyyəsi.

2.14. Müsahibədə 3,5 və daha yüksək bal toplamış namizədlər həmin mərhələdən keçmiş hesab edilirlər.

2.15. Bu qaydanın 2.8 və 2.14-cü bəndlərində müəyyən olunmuş ümumi keçid balını toplamış namizədlərə yerli təhsili idarəetmə orqanları tərəfindən vakant yerlər təklif olunur.

2.16. Bir vakant yerə iki və daha artıq sayda eyni bal toplamış namizəd olduqda aşağıdakı ardıcıllıqla namizədlərə üstünlük verilir:

2.16.1. vakant yerin yerləşdiyi ərazinin yaxınlığında yaşayanlara;

2.16.2. məktəbəqədər təhsilli olanlara;

2.16.3. pedaqoji stajı daha çox olanlara.

2.17. Hər hansı bir səbəbdən göstərilən vaxtda test və ya müsahibə mərhələsində iştirak etməyənlər üçün təkrar müsabiqə keçirilmir.

## 3. Müsabiqənin nəticələri

3.1. Məktəbəqədər təhsil müəssisələrində müdir vəzifəsinə işə qəbul bu Qaydanın 2.1-ci bəndinə əsasən keçirilən müsabiqənin nəticələrinə əsasən aparılır.

3.2. Məktəbəqədər təhsil müəssisələrində müdir vəzifəsinə qəbul edilən şəxslər pedaqogika, psixologiya və idarəetmə ilə bağlı Nazirlik tərəfindən təşkil olunan müvafiq ödənişsiz təlim kurslarına cəlb olunurlar. Təlim kurslarını başa vurmuş şəxslərə forması Nazirlik tərəfindən müəyyən edilən sertifikat verilir.